**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XX YÜZİLİN 20-30-CU İLLƏRİNDƏ AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXÇİLİYİNİN FORMALAŞMASI PROBLEMLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5716.01 – Azərbaycan ədəbiyyatı |
| Elm sahəsi: | Filologiya |
| İddiaçı: | **Aytən Musa qızı Muşkiyeva** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Azərbaycan və Dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Bədirxan Balaca oğlu Əhmədov** |
| Rəsmi opponentlər: | **Leyla Kamran qızı Məmmədova**<br>filologiya elmləri doktoru, dosent |
| | **Razim Əli oğlu Məmmədov**<br>filologiya üzrə fəlsəfə doktoru, dosent |
| | **Aslan Bəhlul oğlu Salmanov**<br>filologiya üzrə fəlsəfə doktoru, dosent |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ________________ | Akademik, filologiya elmləri doktoru, professor<br>**İsa Əkbər oğlu Həbibbəyli** |
| Dissertasiya şurasının elmi katibi: ________________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İsmixan Məhəmməd oğlu Osmanlı** |
| Elmi seminarın sədri: ________________ | filologiya elmləri doktoru, professor<br>**İmamverdi Yavər oğlu Həmidov** |

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan ədəbiyyat tarixçiliyinin ömrü bədii düşüncədən çox gəncdir. Tarixin müxtəlif dövrlərində yazılmış ayrı-ayrı təzkirələri nəzərə almasaq, peşəkar ədəbiyyat tarixçiliyinin, yaxud ədəbiyyat tarixinə aid oçerklərin, icmalların, nəzəri materialların yazılması prosesi XIX əsrin sonu-XX əsrin əvvəllərinə təsadüf edir. Lakin bu prosesin özü də müxtəlif mərhələlərdən keçmiş, çox qısa bir müddətdə ədəbiyyat tarixçiliyi baxımından müəyyən yol keçilmişdir. XX əsrə qədər ədəbiyyat tarixini yaratmaqla bağlı təşəbbüslər olmamışdır, yalnız epizodik şəkildə ədəbiyyat tarixinin bəzi məsələlərinə toxunulmuşdur. F.Köçərlinin rusca nəşr edilmiş "Azərbaycan tatarlarının ədəbiyyatı"(1903) kitabı ilk təşəbbüslərdən biri olmuşdur. Buna qədər isə onun rus və Azərbaycan mətbuatında ədəbiyyata dair müxtəlif məqalələri nəşr edilmişdir. F.Köçərli ilə yanaşı, Abdulla Sur, Əhmədbəy Ağaoğlu, Seyid Hüseyn də ədəbi tənqid mövzusunda məqalələri nəşr etdirmişdir. Lakin bu cür fəaliyyətlər sistemli xarakter daşımadığından yeni tipli ədəbiyyat tarixi də yazılmamış qalırdı. Yeni ədəbiyyat tarixlərinin yazılması və nəşr edilməsi 20-ci illərdə reallaşır. Türkiyədən olan İsmayıl Hikmətin "Azərbaycan ədəbiyyatı" adlı ikicildliyi, Əmin Abidin "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" adlı altıcildlik (bəzi mənbələrdə 3 cildlik) ədəbiyyat tarixləri məhz bu illərdə yazılmışdır. Lakin Ə.Abidin kitabı vaxtında işıq üzü görməmiş, yalnız bəzi hissələri çap olunmuşdur.

Cümhuriyyətdən sonrakı 20-30-cu illər həm də Azərbaycan ədəbiyyatı tarixinin və ədəbiyyat tarixçiliyinin araşdırılması ilə yadda qalır. Ə.Abid, Ə.Nazim, İ.Hikmət, M.K.Ələkbərli, H.Zeynallı kimi gənc tənqidçi və ədəbiyyatşünaslar yeni ədəbiyyat tarixçiliyinin formalaşması yolunda çalışır və ayrı-ayrı klassiklərlə bağlı mühüm məqalələr, əsərlər yazırdılar.

Mövzunun aktuallığı onunla şərtlənir ki, daim inkişaf edən Azərbaycan ədəbiyyatının ilkin araşdırma mərhələsinə elmi-nəzəri baxış əks etdirilir. Ədəbiyyat tarixinin ilk nümunələrinin yazıldığı bir dövrdə, həm də ədəbiyyat tarixçiliyi nəzəri cəhətdən təhlil edilir,

bu proseslər çağdaş ədəbiyyatşünaslıq tərəfindən nəinki geniş araşdırılır, həm də yeni ədəbiyyat tarixinin yazılması istiqamətində yeni konsepsiya hazırlanır.

Problemin araşdırılması prosesi XX əsrin 50-ci illərindən başlanaraq ədəbiyyat tarixçiliyi ilə bağlı bir çox məqalələr yazılmışdır. F.Köçərli yaradıcılığı haqqında aparılan araşdırmalarda ədəbiyyat tarixi problemi önə keçmişdir. B.Nəbiyevin "Firudin bəy Köçərli" monoqrafiyası ilk fundamental işlərdəndir. Lakin 20-30-cu illərdə ədəbiyyatşünaslıq sahəsində fəaliyyət göstərən Ə.Abid, A.Musaxanlı, B.Çobanzadə, H.Zeynallı, M.K.Ələkbərli, Ə.Nazim, S.Mümtaz kimi tənqidçi və ədəbiyyatşünaslar repressiyaya məruz qaldıqlarından onların yaradıcılığı da uzun müddət araşdırmadan kənarda qalmışdır. 80-ci illərdən etibarən bu tənqidçi və ədəbiyyatşünasların yaradıcılığı müxtəlif yönlərdən tədqiq edilmişdir. S.Mümtaz, H.Zeynallı, Ə.Nazim kimi tədqiqarçıların əsərləri toplanılaraq kitab şəklində dərc edildikdən sonra onların da yaradıcılığı elmi dövriyyəyə daxil olur. K.Talıbzadə, Ş.Salmanov, Ə.Şamil, N.Qəhrəmanlı, N.Şəmsizadə, Ş.Alışanlı, B.Əhmədov, T.Əlişanoğlu, F.Ağayev, Q.Babayeva və b. ədəbiyyat tarixçiliyi istiqamətində araşdırmalar aparmışlar. N.Qəhrəmanlının "Milli ədəbiyyat tarixçiliyi; genezis, inkişaf və dövrləşdirmə problemləri" əsərində ədəbiyyat tarixçiliyinin problemləri araşdırılır. B.Əhmədovun "Bir istiqlal yolçusu", F.Ağayevin "İsmayıl Hikmət və Azərbaycan ədəbiyyatı", Q.Babayevanın "Mustafa Quliyev (Taleyi və irsi)" monoqrafiyalarında ədəbiyyat tarixçiliyi prosesində fəal iştirak edən Ə.Abid, İ.Hikmət, M.Quliyev kimi ədəbiyyatşünasların yaradıcılığı tədqiq edilir. N.Şəmsizadənin "Azərbaycan ədəbiyyatşünaslığı" monoqrafiyasında da dövrün ədəbiyyat tarixçiliyi problemlərinə nəzər yetirilir. Bütövlükdə götürdükdə XX əsrin əvvəllərində ədəbiyyat tarixçiliyi problemləri və şəxsiyyətlərinin yaradıcılığı kompleks şəkildə araşdırılmamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin məqsədi ilk ədəbiyyat tarixlərinin yaranması və araşdırılması prosesini, eləcə ədəbiyyat tarixçiliyi problemlərini elmi-nəzəri cəhətdən araşdırmaqdır. Tədqiqatın əsas məqsədi ədəbiyyat tarixçiliyi istiqamətində aparılan araşdırmaların mərhələlərini, problemlərini

öyrənmək, bu istiqamətdə yazıb yaradan ədəbiyyatşünasların gördüyü xidmətləri dəyərləndirmək və sistemləşdirməkdir. Məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- Azərbaycan ədəbiyyatı tarixinin necə adlanması məsələsinə ədəbiyyat tarixçilərinin münasibətinə aydınlıq gətirmək;
- Tarixi əsərlərin araşdırılmasında mənbə və bədii təxəyyülün rolunu müəyyənləşdirmək;
- Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi məsələsində ədəbiyyat tarixçilərinin mövqeyini tədqiq etmək;
- Azərbaycan ədəbiyyatının haradan başlanılması ilə bağlı mövqelərə nəzər yetirmək;
- F.Köçərlinin ədəbiyyat tarixinə sistemli baxışını araşdırmaq;
- A.Sur yaradıcılığında ədəbiyyat tarixçiliyi problemlərini araşdırmaq;
- Əmin Abidin ədəbiyyat tarixi konsepsiyasına tədqiq etmək;
- B.Çobanzadə, M.K.Ələkbərli, Ə.Nazim yaradıcılığında ədəbiyyat tarixçiliyi məsələlərinin inikası probleminə nəzər yetirmək;
- İsmayıl Hikmət və onun ədəbiyyat tarixi ilə bağlı araşdırmalarını saf-çürük etmək;
- Yeni tipli ədəbiyyat tarixçiliyi konsepsiyasının formalaşması məsələsinə münasibət bildirmək; və s.

**Tədqiqatın metodları.** Dissertasiyada mövzu və problemə uyğun olaraq tarixilik, analitik təhlil və müqayisəli araşdırma metoduna üstünlük verilmişdir. Problem özü həm praktik, həm də nəzəri səciyyə daşıdığından bu prinsiplərin qovuşuğu da nəzərə alınmışdır. Tədqiqat işində həmin dövrün elmi-nəzəri araşdırmaları müasir elmi-nəzəri prinsiplər kontekstində təhlil edilmiş və müəyyən nətəcələrə gəlinmişdir. Ədəbiyyat tarixçiliyi probleminin xarakterinə uyğun şəkildə araşdırmalarda sistemlilik başlıca yer tutmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada Azərbaycan ədəbiyyat tarixçiliyinin formalaşmasının iyirmi illik bir dövrü tədqiq edilir. Bu dövr sistemli şəkildə ədəbiyyat tarixçiliyi kontekstində ayrı-ayrı ədəbiyyatşünasların yaradıcılığı fonunda araşdırılır. Bununla belə, tədqiqat işində bəzi məsələlər önə çıxarılır ki, bu müddəaları aşağıdakı kimi vermək olar:

-Azərbaycan ədəbiyyat tarixinin yaradılması prosesinin ilkin mərhələsi;

-Ədəbiyyat tarixçiliyi prosesinin hazırlanmasında ədəbiyyatşünasların rolu və mövqeyi;

-Ədəbiyyat tarixçiliyinin ilkin formalaşma dövründə F.Köçərlinin məqalə və əsərlərinin rolu;

-Azərbaycan ədəbiyyatının başlanğıcı məsələsi;

-Azərbaycan ədəbiyyatının necə adlanması probleminə yeni baxışın formalaşması problemləri;

-Avropa tipli ədəbiyyat tarixçiliyinin yazılmasında yeni fikir və mülahizələr;

-20-ci illər ədəbiyyatşünaslığına yeni elmi qüvvələrin gəlişi ilə ədəbiyyat tarixçiliyinin formalaşması;

-Yeni ədəbiyyat tarixçiliyi yolunda ilk ədəbiyyat tarixlərinin yazılması;

-İ.Hikmət və Ə.Abidin ədəbiyyat tarixlərinin yeni ədəbiyyat tarixçiliyinin formalaşmasında əhəmiyyəti;

-30-cu illərdə yeni ədəbiyyat tarixçiliyi yolunda atılan addımlar;

-B.Çobanzadə, H.Zeynallı, M.K.Ələkbərli və b. ədəbiyyatşünasların ədəbiyyat tarixçiliyinin formalaşmasında rolu;

-Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi problemlərinə yeni baxış;

-Yeni ədəbiyyat tarixçiliyinin yazılmasında metodoloji problemlər; və s.

**Dissertasiyanın elmi yeniliyi**. Tədqiqat işində ilk dəfə olaraq ədəbiyyat tarixçiliyinin formalaşma prosesi araşdırılır. Bu dövr ədəbiyyat tarixçiliyi baxımından ən zəngin və konseptual bir dövr olmuşdur. Tədqiqatın elmi yeniliyi onunla şərtlənir ki, həmin dövrdə ədəbiyyat tarixçiliyi istiqamətində üzə çıxan formalaşma konsepsiyaları ümimiləşdirilir və müəyyən qənaətə gəlinir. Tədqiqat işində ədəbiyyat tarixçiliyinin formalaşmasında rolu olan ədəbiyyatşünasların yaradıcılığı yeni baxış bucağından təhlil edilir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Dissertasiya işi həm nəzəri, həm də təcrübi əhəmiyyət daşıyır. Belə ki, ədəbiyyatşünaslıq özü nəzəri və praktik səciyyə daşıdığından problem bu iki istiqamətin qovuşuğunu əks etdirir. Azərbaycan ədəbiyyatşünaslığında ədəbiyyat

tarixçiliyinin formalaşmasında məhz 20-30-cu illər başlıca yer tutur. Ədəbi mühitə və prosesə yanaşma, şairin həyatı və yaradıcılığını araşdırma, dövr, mühit və s. problemlər nəzəri xarakter daşıyır. Hər hansı bir şairin, yazıçının ədəbiyyat tarixində tutduğu yeri və mövqeyinin müəyyənləşdirilməsi kimi məsələlər ədəbiyyat tarixinin formalaşmasında mühüm rol oynayır.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestatiya Komissiyası tərəfindən tövsiyə edilən nüfuzlu elmi jurnal və məcmuələrdə, xarici yar elmi nəşrlərində, beynəlxalq səviyyəli konfrans və simpoziumlarda etdiyi məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Gəncə Dövlət Universitetinin Azərbaycan və Dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Tədqiqat işinin quruluşu**. Dissertasiya giriş, hər biri iki paraqrafdan ibarət 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 12.990, I fəsil – 83390, II fəsil – 43240, III fəsil – 70029**,** Nəticə – 7.722 şərti işarədən ibarətdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla dissertasiya işinin ümumi həcmi – 257511 şərti işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, elmi yeniliyi, praktik və nəzəri təcrübi əhəmiyyəti, obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, problemin işlənmə dərəcəsi, metodoloji əsasları, strukturu və aprobasiyası haqqında məlumat verilir.

Tədqiqatın iki paraqrafdan ibarət olan I fəsli **"Azərbaycan ədəbiyyatı tarixçiliyinin formalaşmasının mənbə və qaynaqları"** adlanır. **"Azərbaycan ədəbiyyatı tarixçiliyinin formalaşması yollarında"** adlı ilk paraqrafında ədəbiyyat tarixinin formalaşması prosesi araşdırılır. Qeyd olunur ki, Azərbaycan bədii düşüncəsinin bizə gəlib çatan nümunələrinin böyük bir qismi ayrı-ayrı dövrlərdə müxtəlif təzkirələrdə yer almışdır. Lakin zaman keçdikcə bu

təzkirələr öz funksiyasını itirmiş, onun yerinə yeni formaların ortaya çıxması zərurəti yaranmışdır. Lakin bu təzkirələrdə anadilli şairlərin hamısı əhatə olunmur, haqlarında geniş məlumatlar verilmirdi. Bunu nəzərdə tutan H.Araslı yazırdı: *"...orta əsr təzkirə müəlliflərindən o qədər də irəli gedə bilməmiş, qədim təzkirəçilərə az-çox əlavələr etsələr də, əsas yazıçıları əhatə edə bilməmişdilər"*[1].

XIX əsrin başlarından çap işinin genişlənməsi, müxtəlif mətbuat orqanlarının nəşrə başlaması və burada dövrün yazarları haqqında geniş məlumatların verilməsi məhdud dairələrdə tanınan ədəbi simaların daha geniş auditoriyaya çıxmasına səbəb olmuşdu. Artıq dünyada gedən proseslər ədəbi-bədii məhsullara Şərqdə də yeni təhlil metodları ilə yanaşmanı şərtləndirirdi. İlk yeni ədəbiyyat tarixçiliyinin yaranması və formalaşması da məhz bu dövrdə baş vermiş, ədəbiyyat tarixçiliyində yeni təhlillər meydana gəlmişdir. Çünki ədəbiyyat tarixi sosial elmlərin bir qolu olan ədəbiyyat və tarix elminin kəsişdiyi önəmli ədəbiyyat qavramlarından biridir. Türk alimi Turan Karataşın yazdığı kimi: *"Ən genəl halıyla, ədəbiyyat tarixi, bir millətin tarix içində yetişdirdiyi şəxsiyyətləri və onların əsərlərini, tarixi proses içərisində və bir sistem daxilində təhlil edən elmin bir qoludur"*[2].

XX əsrin əvvəllərində F.Köçərli ilə yanaşı, A.Sur, S.Hüseyn (Kazımoğlu), H.İ.Qasımov, Əkbər Əkbərov kimi ədəbiyyatşünasların da məqalələri yeni tipli ədəbiyyat tarixçiliyinin ortaya çıxmasında əsaslı rol oynayırdı. Bunların içərisində A.Surun yaradıcılığı mühüm yer tutur. A.Sur bir ədəbiyyat adamı olaraq həm klassik ədəbiyyat, həm də çağdaş ədəbiyyat məsələləri ilə məşğul olmuşdur. A.Surun ədəbiyyat tarixi ilə elmə məlum olan çox az sayda məqalələri onun aydın ədəbiyyat tarixçiliyi təfəkkürünə malik bir ədəbiyyatşünas olduğunu göstərir. Onun ədəbiyyat tarixçiliyi ilə bağlı düşüncələrində Türkiyə ədəbi mühitinin də rolu az olmur. 1906-cı ildə İstanbula təhsil almağa gedən A.Sur orada "Türk ədəbiyyatına bir nəzər" (1908) əsərini yazır. Respublika Əlyazmaları fondunda kiçik bir hissəsi qalmış bu əsərdən aydın olur ki,

---

[1] Araslı, H. XII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. –Bakı: Azərnəşr, –1956. –s. 6.

[2] Turan, K. Ansiklopodik Edebiyyat Terimleri Sözlügü. -Ankara: -Akçağ Yayınları, -2004. -s. 135.

ədəbiyyatşünas bədii əsərdə formalizmə deyil, mahiyyətə daha çox önəm verirdi. Akademik K.Talıbzadənin qənaətinə görə *"...bunlar (əsərdən qalan bəzi parçalar və qaralamalar-A.M.) müəllifin geniş və dərin bir ədəbiyyat tarixi yazdığını təsdiq etməkdədir...1000 səhifədən və üç cilddən ibarət olan bu əsərin əldə qalmış bəzi fraqmentləri təsdiq edir ki, bir ədəbiyyat tarixi kimi, o, həmin dövrdə yazılmış ədəbiyyat tarixlərindən elmi-nəzəri cəhətdən üstün imiş"*[3].

XX əsrin əvvəllərində ümumən ədəbi prosesin özü yeni ədəbiyyat tarixçiliyinin yaranmasını zəruri edirdi. Mətbuat bolluğunda klassik irs məsələsi, yeni ədəbiyyatın necə olması kimi problemlərə münasibət həm də yeni ədəbiyyat tarixçiliyinin konturlarını müəyyənlədirməyə xidmət edirdi. Haşım bəy Vəzirov, Seyid Hüseyn, Salman Mümtaz, Əlimərdan bəy Topçubaşov, Səməd Ağamalıoğlu, Nəsib bəy Yusifbəyli, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə və b. müxtəlif səpkili məqalələrində klassik və müasir ədəbiyyat məsələlərinə münasibətdə həm də ədəbiyyat tarixçiliyi məsələlərinə toxunulurdu. Bu məqalələrdə klassik irs təbliğ olunmaqla yanaşı, yeni dövrün ədəbiyyatı da təhlil edilirdi. S.Hüseyn ədəbi tənqidi məqalələrində, az da olsa, klassik ədəbiyyat məsələlərinə də müraciət edirdi. Onun M.Füzuli, M.P.Vaqif, M.V.Vidadi, Q.Zakir və b. şairlərin yaradıcılığına verdiyi qiymət, həm də onların ədəbiyyat tarixindəki mövqeyinə verilən qiymət idi. Salman Mümtaz da toplama işlərinə xüsusi diqqət ayırır, Azərbaycan ədəbiyyatının tarixinə aid bədii mətnləri toplayır və sistemləşdirməyə çalışırdı. S.Mümtaz da F.Köçərli kimi işini yalnız toplamaqla bitmiş hesab etmir, həm bu əsərlər barədə fikir və mülahizələrini bildirir, ədəbi prosesə məlumat verirdi.

Bütün bunlardan belə nəticə çıxarmaq olar ki, bu mərhələ ədəbiyyat tarixçiliyi və ədəbiyyatşünaslığın ilkin axtarış dövrü idi. Hələ ədəbiyyat tarixçiliyi ilə bağlı vahid bir konsepsiya formalaşmamışdı. Lakin həm ədəbiyyat tarixçiliyi ilə bağlı yazılan əsərlərdə, həm də müasir ədəbi proses haqqında yazılan məqalələrdə yeni ədəbiyyatın yaranması zəruriliyi önə sürülürdü. Bu elmi axtarışların sonrakı inkişaf mərhələsi aydın göstərdi ki, təzkirələr,

---

[3] Talıbzadə, K. Azərbaycan ədəbi tənqidinin tarixi. –Bakı: –Maarif, -1984. –s. 99.

yaxud bu üslubda yazılan ədəbiyyatşünaslıq əsərləri daha yeni ədəbiyyatı təhlil etməkdə effektli rol oynamır. Ona görə də, yeni ədəbiyyat tarixçiliyi yollarında araşdırmalar aparmaq 20-30-cu illər ədəbiyyatşünaslığının öhdəsinə düşürdü.

I fəslin **“Ədəbiyyat tarixinin başlanğıcı və necə adlanması məsələsi”** adlı ikinci paraqrafda 20-30-cu illərdə ədəbiyyat tarixinin yazılmasında onun başlanğıcı və necə adlanması məsələri tədqiq edilir. Aydındır ki, milli ədəbiyyat tarixinin araşdırılmasında əsas məsələlərdən biri onun necə adlandırılması və öz mənbəyini haradan götürməsidir. F.Köçərli 1895-ci ildə "Novoe obozreniye" jurnalında dərc etdirdyi silsilə məqalələri "Tatarskiye komedii" adlandırırdı. 1903-cü ildə dərc etdirdiyi rusca kitabını isə "Azərbaycan tatarlarının ədəbiyyatı" adı ilə çap etdirmişdir. Lakin məlumdur ki, F.Köçərli məqalələrində türk, azərbaycan türkləri sözlərindən də istifadə etmişdir. Maraqlıdır ki, sovet dövründə də tədqiqatçının əsərləri "Azərbaycan ədəbiyyatı" adı altında çap olunmuşdur. Onun əsərlərinin ikicildliyini nəşrə hazırlayan Ruqiyyə Qənbər qızı F.Köçərlinin bu tədqiqatlarının tatar ədəbiyyatı adı altında nəşr edilməsinə qarşı çıxır. "Literatura azerbaydjanskix tatar" kitabının bu adda çıxmasına etiraz edərək yazır: *"Tədqiqat əsərlərində kitab çox vaxt "Azərbaycan tatarlarının ədəbiyyatı" adlandırılır. Halbuki onu Köçərlinin özü kimi "Azərbaycan türklərinin ədəbiyyatı" və yaxud, hələ o dövrdə tatar qəzeti "Tərcüman"da (17 oktyabr 1903, №46), həmçinin alimin son zamanlar nəşr edilmiş "Seçilmiş əsərləri"ndə (Bakı, 1963, səh.43) olduğu kimi "Azərbaycan ədəbiyyatı" adlandırmaq daha düzgün olar".* [4] Maraqlı cəhət burasındadır ki, bu kitab o zaman rusca çap olunarkən yazılan rəylərdə "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" kimi adlanmışdır. Məsələn, görkəmli pedaqoq Rəşid bəy Əfəndiyevin "Şərqi-Rus" qəzetində dərc edilən məqalənin özü "Azərbaycan türklərinin ədəbiyyatı", ancaq rusca "Kaspi" qəzetində çap olunarkən "Literatura azerbaydjanskix tatar" adlandırılmışdır. Bu da onu göstərir ki, türk sözü rusca tatar kimi tərcümə olunmuş, ya da rusca

[4] Ruqiyyə, Q. Firudin bəy Köçərli və onun "Azərbaycan ədəbiyyatı" əsəri // Firudin bəy Köçərli Azərbaycan ədəbiyyatı. –Bakı: –Elm, –1978. –s.9.

tərcüməsində senzor xalqın adını dəyişərək tatar kimi getməsini istəmişdir. Bunu indi dəqiqləşdirmək çətin olsa da, müəyyən ehtimallar irəli sürmək olar.

Ədəbiyyat tarixi ilə bağlı ən çox araşdırmalar 20-ci illərdə aparılmışdır. M.F.Köprülü, Y.Vəzirov, S.Mümtaz, Ə.Abid, İ.Hikmət, A.Musaxanlı, Ə.Nazim və b. ədəbiyyatşünasların ədəbiyyat tarixinin adı ilə bağlı fərqli fikir və baxışları vardır. Bu baxışlar arasında "Azəri ədəbiyyatı", "Azəri türk ədəbiyyatı", "Azərbaycan ədəbiyyatı", "Azərbaycan türklərinin ədəbiyyatı" və s. adlar mühüm yer tutur. M.F.Köprülüzadə 20-ci ilin əvvəllərində Azərbaycan ədəbiyyatı ilə bağlı araşdırmalar aparmışdır. "Azərbaycan ədəbiyyatı tarixi nasıl yazıla bilər?" məqaləsi "Maarif və mədəniyyət", jurnalında (1925, №2, s. 4) dərc edilmişdir. "Azəri ədəbiyyatına aid tədqiqlər" (Bakı, "Azərnəşr", 1926) kitabı isə F.Köçərlinin əsərindən sonra Azərbaycanda nəşr edilən ikinci kitab olur.

M.F.Köprülü yalnız Azərbaycan ədəbiyyatı haqqında yazmamış, türk xalqlarının ədəbiyyatı ilə bağlı tədqiqatlar aparmışdır. Türk ədəbiyyatı dedikdə ümumtürk ədəbiyyatını nəzərdə tuturdu. "Azəri ədəbiyyatı" əsərində *"Bugünə qədər Türk ədəbiyyatının ən az tədqiq edilmiş olan şöbəsi Azəri ədəbiyyatıdır"*[5]. O, azərbaycan dilinə Azəri ləhcəsi, Azərbaycan türklərinə Azəri türkləri deyir və ədəbiyyatı da bu əhatə dairəsində araşdırır. XIV əsr Azərbaycan ədəbiyyatını araşdırarkən yazır: *"Bu əsrdə Azəri türklərinin məskun olduğu sahənin müxtəlif yerlərində bir çox şairlərin yetişdiyi qayət təbiidir; fəqət bunların çoxu haqqında hənuz məlumatımız yoxdur"*[6]. Azəri türkləri sözünü işlətməklə tədqiqatçı elə Azərbaycan türklərini nəzərdə tutmuş olur. Məlumdur ki, Azəri sözü ilə bağlı M.F.Köprülünün ayrıca bir əsəri də vardır. Bu əsərində görkəmli fikir adamı sözün etimoloji köklərini araşdırır.

Ədəbiyyatımızın "Azəri ədəbiyyatı adlanması" ən çox M.F.Köprülü yaradıcılığında özünü göstərir. Lakin Azərbaycandan

---

[5] Köprülü, M.F. Türk edebiyatı notları, Külliyyat, 7, –İstanbul: –Alfa-Tarih, –2015. –s. 389.

[6] Köprülü M.F. Türk ədəbiyyatı notları, Külliyyat, 7, –İstanbul: –Alfa-Tarih, –2015. –s.389.

olan tədqiqatçıların da əsərlərində bu adlardan bəzən istifadə olunmuşdur. Ə.Abid Türkiyədə yazdığı çoxcildlik "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" əsərində bu ifadədən də istifadə etmişdir. Maraqlıdır ki, F.Köçərlidən sonra ilk dəfə olaraq Ə.Abid əsərini "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" adlandırmışdır. Lakin o, "Azərbaycan ədəbiyyatı", "Azəri ədəbiyyatı", "Türk ədəbiyyatı" sözlərindən də istifadə etmişdir.

Ə.Abid Türkiyədə məzuniyyət tezi olaraq müdafiə etdiyi başqa bir əsərini isə "Azəri-türk" ədəbiyyatı adlandırırdı. Bütün bunlar onu göstərir ki, Ə.Abidin düşüncəsində ədəbiyyat tarixinin adı kimi "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" daha məqbul hesab edilib. Elə 6 cild olduğu ehtimal edilən çoxcildliyini də "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" adlandırmışdır. Lakin məqalə və tədqiqatlarında "Azərbaycan ədəbiyyatı", "Azəri ədəbiyyatı", "Azəri-türk ədəbiyyatı" və s. sözlərindən sinonim kimi də istifadə etmişdir.

F.Köçərlinin ədəbiyyat tarixindən sonra sovet dövründə çap olunan ikinci əsər İ.Hikmətin ikicildlik "Azərbaycan ədəbiyyatı tarixi" əsəri olur. 20-ci illərin sonlarına yaxınlaşdıqca türk sözü daha az işlənilmiş, Azərbaycan ədəbiyyatı adı altında şəkillənməyə başlamışdır. Nəzərə alsaq ki, buna qədər tədqiqatçının dörd cildlik 1925-ci ildə "Türk ədəbiyyatı tarixi" kitabı nəşr olunmuşdu, o zaman onun düşüncəsində Azərbaycan ədəbiyyatının bu ad altında verilməsi istisna olunurdu. Məlumdur ki, İ.Hikmət 1923-1927-ci illər arasında Azərbaycanda müxtəlif yerlərdə dərs demiş, Azərbaycan ədəbiyyatını tədris etmişdir. "Azərbaycan ədəbiyyatı tarixi" əsərini professorluq almaq üçün təqdim etmişdir. İ.Hikmət əsərini "Azərbaycan ədəbiyyatı tarixi" adlandırmasına baxmayaraq içərisində Azərbaycan və türk sözlərindən, eləcə də Azərbaycan ədəbiyyatından türk ədəbiyyatı olaraq bəhs edir. Məsələn, İ.Nəsimi yaradıcılığından bəhs edərkən yazır: *"Özünün Qureyşilik və Haşimilik iddiasında bulunması və bilxassə seyid olması, olduqca qüvvətli dəlillərdən sayılsa belə, Azərbaycan şivəsilə daha VII əsrdə yazdığı o qüvvətli, o coşğun divanıyla bütün Türk ədəbiyyatı üzərində ölməz bir təsir buraxan Seyid Nəsimi türkdür deməkdə*

*tərəddüd etməyiz"*[7].

S.Mümtaz, Ə.Nazim, İ.Hikmət, A.Musaxanlı, H.Zeynallı və b. yazdıqları məqalə və tədqiqatlarda bu ada üstünlük verirdilər. S.Mümtaz 1925-ci ildən başlayaraq yazılarını "Azərbaycan ədəbiyyatı" adı altında çap etdirirdi. Topladığı ədəbi nümunələri və yazdığı tarixi əhəmiyyətli məqalələrində "Azərbaycan şairi", "Azərbaycan ədəbiyyatı" adlarına sıx-sıx rast gəlmək olurdu. Hələ Azərbaycan ədəbiyyatı adının tam olaraq formalaşmadığı bir zamanda B.Çobanzadə özünün ədəbiyyat tarixini "Azəri ədəbiyyatının yeni dövrü" adlandırırdı. M.K.Ələkbərli də "Azərbaycan ədəbiyyatı" istilahından istifadə etmişdir.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyat tarixçiliyində əsas müzakirə olunan məsələlərdən biri də ədəbiyyatın başlanğıcı məsələləridir. Belə ki, Azərbaycan ədəbiyyatı tarixinin yazılmasında istər-istəməz bu məsələ ilk sırada yer alırdı. F.Köçərli, Y.Vəzirov, Ə.Abid, İ.Hikmət, M.F.Köprülü, M.Quliyev, A.Musaxanlı, C.Əfəndizadə, M.K.Ələkbərli kimi tədqiqatçılar məqalə və araşdırmalarında xalqın ədəbi düşüncəsinin haradan başlanması məsələsinə öz münasibələrini bildirmişlər. F.Köçərli xalqın bəddi düşüncəsinə milli sərvət olaraq baxırdı. Lakin mükəmməl ədəbiyyat tarixinin yazılması ilk olaraq materialların toplanmasından keçirdi. Çünki əldə kifayət qədər material olmadan onun tarixinin yazılması da mümkün deyildi. Ona görə də yazırdı: *"Aya, biz Azərbaycan türklərinin Seretelilləri və Çavçavadzeləri olmayıbdırmı? Bizim milli şairlərimiz ərseyi-dünyaya gəlməyibdirmi? Aya, bizlər belə möhtərəm şəxslərin vücudundan məhrummu qalmışıq?"*[8]. Topladığı ilk materialların nəticəsi olaraq tez-tez rus və Azərbaycan mətbuatında məqalələrlə çıxış edirdi. *"Azərbaycan türklərinin ədəbiyyatı" kitabının da dərc olunması bunun ilk ciddi nəticələrindəndir"*[9].

İ.Hikmətin 20-ci illərdə dərc olunan "Azərbaycan ədəbiyyatı tarixi" əsərində Azərbaycan ədəbiyyatının haradan başlanması

---

[7] İsmail, Hikmet Ertaylan, Azerbaycan edebiyatı tarihi. I-II, Ankara: –Akçağ Yayınları, –2013. –s. 201.

[8] Köçərli, F. Seçilmiş əsərləri. –Bakı: –Azərbaycan EA nəşriyyatı, –1963. –s. 175.

[9] Кочарлинский, Ф. Литература азербайджанских татар. Тифлис, –1903, –с. 54.

haqqında ayrıca paraqraf açılmamışdır. Lakin tədqiqatçının ədəbiyyat tarixinin tərtibindən belə anlaşılır ki, milli ədəbiyyat tarixini anadilli ədəbiyyatdan başlayır. M.F.Köprülü Azərbaycan ədəbiyyatını Həsənoğludan başlamağı daha məqsədəuyğun hesab edirdi.

Bu fəsildə əldə edilən müddəalar müəllifin elmi jurnallarda dərc edilmiş məqalələrində öz əksini tapmışdır.[10]

**"20-ci illərdə yeni tipli ədəbiyyat tarixinin formalaşması problemləri"** adlı II fəsil iki paraqrafa ayrılır. Bu fəslin **"İsmayıl Hikmət və onun "Azərbaycan ədəbiyyatı" əsəri"** adlı I paraqrafında F.Köçərlidən sonra ədəbiyyat tarixi istiqamətində böyük işlər görmüş İ.Hikmət yaradıcılığı tədqiq edilir. İ.Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi" əsəri vaxtında yazılmış ədəbiyyat tarixi kimi haqqında müəyyən söz deməyə imkan verir. Ədəbiyyat tarixinin sosial elmlərin bir qolu olub bir çox cəhətdə tarixlə kəsişdiyini nəzərə almış olsaq, millətin tarixi inkişaf yolunu bədii cəhətdən izləmək xronologiyası kimi qavramaq olar. Bu cəhətdən İ.Hikmətin ədəbiyyat tarixi dövrünün tələblərinə müəyyən dərəcədə cavab vermiş olur.

İ.Hikmət Azərbaycan ədəbiyyatı tarixinə yeni kontekstdən yanaşırdı. Əsərinin "Başlanğıc" hissəsində Azərbaycanın qədim varlığından, "aşqın" və "daşqın" insan sellərinin çarpışmasından, "türklərin Orxun, Türfan (kitabda Türxan göstərilmişdir-A.M.) Yenisey abidələrindəki ədəbi qiymətlərdən bəhs edilir. Müəllif aradakı bir neçə əsri keçərək Səlcuq imperatorluğundan (1037) bəhs edir. Burada kiçik tarixi bir icmal verilir, Səlcuq hökmdarları və onların bir-biri ilə olan müharibələri qısa şəkildə qeyd edir. İ.Hikmətin bu tarixi icmalı yazmaq zərurəti xalqın tarixi və ədəbi

---

[10] Muşkiyeva, A. XX əsr ədəbi tənqid tarixinə dair araşdırmalar/Gənc alimlərin III beynəlxalq elmi konfransı. Gəncə Dövlət Universitetinin 80 illik yubileyi. II hissə. -GDU, -Gəncə: –2018, 17-18 oktyabr. –s. 89-91; Muşkiyeva, A. XX əsrdə ədəbi proses // -Bakı: Filologiya məsələləri,-2018. № 1,-s. 299-303; Muşkiyeva, A. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixinin araşdırılması problemləri II. Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş IX Beynəlxalq Elmi konfransın materialları, –Bakı: –3-4 may, -2018. –s. 379-381.

düşüncəsini vəhdətdə izləmək istəyindən irəli gəlmişdir. Türklərin islamiyyətdən daha əvvəl ictimai, iqtisadi və siyasi münasibətlərdə olduqları iranlıların adət, ədəb, ənənə və mədəniyyətləri ilə əlaqəli şəkildə inkişaf etdiklərinə diqqət çəkirdi. Bu yanaşma əsərin strukturunda da özünü göstərir. Tədqiqatçı hər hansı bir dövrün icmal təhlilini verdikdən sonra həmin dövrə aid portret oçerkləri verir. Lakin bu oçerklərin özündə belə ədəbiyyatın dövr və mərhələ xüsusiyyətlərinə nəzər salır. Əsərin birinci cildi üç hissəyə bölünür. Birinci cildin I hissəsi "İslamiyyətdən miladi on üçüncü əsrə qədər", "İslamiyyətin zühurundan əvvəl Azərbaycan" icmallarından sonra şərqilər, hekayələr, oyunlar, rəqslər, şeytaniyyat bölümləri ilə şifahi xalq ədəbiyyatına yer verilir.

İ.Hikmətin ədəbiyyat tarixini əhəmiyyətli edən amillərdən biri də onun araşdırma xarakterli olmasıdır. Yəni ədəbiyyat tarixində mümkün olduğu qədər təsvirçilikdən qaçınılmış, hər bir fikrin deyilməsində faktlara müraciət edilmişdir. Bu cəhətdən onun ədəbiyyat tarixi ona qədər yazılmış ədəbiyyat tarixlərindən xeyli dərəcədə fərqlənir. İslamiyyətin zühurundan əvvəl Azərbaycanın tarixi, iqtisadi, ictimai, mədəni, ədəbi sahələrini təkzibedilməz faktlarla müşaiyət edir. Bəzən də bir fikrin əsaslandırılması üçün bir neçə mənbəyə müraciət edir. Bu cəhətdən İ.Hikmətin ədəbiyyat tarixini təkcə ədəbiyyat tarixi nöqteyi-nəzərdən deyil, həm də bir monoqrafik araşdırma kimi dəyərləndirmək olar.

Əsərin birinci hissəsində janrın xüsusiyyətləri qeyd olunur və onları da müxtəlif yerlərə bölür. İ.Hikmətin hekayələr bölgüsü belədir: 1. Tarixi hekayələr. 2. Sevda hekayələri. 3. Qəhrəmanlıq hekayələri. 4. Xaricdən gələn hekayələr. Bu nağılların çoxunun müxtəlif türk xalqları arasında ortaq olduğuna diqqət çəkən tədqiqatçı onların Azərbaycanda daha geniş yayıldığını bildirir. "Şah İsmayıl" dastanı ilə "Dədə Qorqud"dan bir boy verilir. Bu da o demək olur ki, ilk dəfə olaraq Azərbaycan ədəbiyyatı tarixi kitabına "Dədə Qorqud" dastanı daxil edilir. "Azərbaycan ədəbiyyatı tarixi" əsərinin ikinci qismi moğol istilası, Teymur istilası və təsəvvüf kimi üç müxtəlif mövzunu əhatə edir. Tədqiqatçı M.F.Köprülüyə istinadən Teymurların müharibələri və təsəvvüf mahiyyəti, eləcə də hurufilik haqqında icmal vermişdir. Əsərin "Dini cərəyan. Təsəvvüf

(mistisizm)" adlanan bölümündə Qaraqoyunlu və Ağqoyunlu hökmdarlarından başlayaraq Cağatay ədəbiyyatına, Səfəvilərin hakimiyyəti dövrünə qədər gəlir. Burada şiəlik və Azəri ədəbiyyatının ümumi səciyyəsi haqqında müxtəsər icmal verilir. Bundan sonra isə ədəbi şəxsiyyətlərin həyatı və yaradıcılığı təqdim olunur ki, burada da Həsənoğlu, Qazi Bürhanəddin və Nəsimi yaradıcılığı ilə tanış oluruq.

İ.Hikmət Dövlətşah Səmərqəndiyə əsaslanaraq şairin farsca və türkcə iki divanının olduğu fikrini müdafiə edir. "Apardı (İ.Hikmətdə "ayırdı" getmişdir-A.M.) könlümü bir xoş qəmər yüz canfəza dilbər" sətri ilə başlayan məşhur qəzəlini bütöv şəkildə ədəbiyyat tarixində verən ədəbiyyatşünasın qəzəli "bir növ" farsca mənzumələrə nəzirə olduğunu da qeyd edir. Burada ədəbiyyatşünasın bu qənaəti Əhməd Daidən gətirilən bəzi fikirləri təsdiq etmiş olur. Ümumi götürdükdə, ədəbiyyatşünas İ.Hikmətin Həsənoğlu yaradıcılığını dəyərləndirməsində rasional cəhətlər çoxdur: *"Hər halda Həsənoğlunun hicri 8. əsrdə yaşayan və əski sxolastik ədəbiyyatda şöhrət bulan şairlərdən biri olaraq tanıtmaqda haqlıyız. Onun gərək dildə, gərəksə vəzn və nəzm texniklərində qüvvətli bir sənətkar olduğunu görüyoruz"*[11].

İ.Hikmətin ədəbiyyat tarixində Qazi Bürhanəddin haqqında da ayrıca oçerk verilmişdir. Bu ona görə əhəmiyyətlidir ki, ədəbiyyatşünasın şairi Azərbaycan ədəbiyyatına daxil etməsinə baxmayaraq, uzun müddət milli ədəbiyyat tarixçiliyimiz onun yaradıcılığına biganə yanaşmışdır. İ.Hikmətin bu əsərini nəzərə almasaq, 80-ci illərə qədər dərc edilən ədəbiyyat tarixlərində Q.Bürhanəddin və onun yaradıcılığı Azərbaycan ədəbiyyatına daxil edilməmiş, milli ədəbiyyat faktı olaraq araşdırılmamışdır.

İ.Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi" əsərində haqqında geniş araşdırma apardığı başqa bir görkəmli şairi İmadəddin Nəsimidir. Ədəbiyyatşünas Nəsimi ilə bağlı Lətifi, Faiq Rəşad bəy, Məhəmməd Xalid, Xınalızadə Həsən Çələbi və Bəyani təzkirələrinə baş vuraraq şairin həyatı haqqında dövrünə qədər məlum olmayan

---

[11] İsmail, H. Azerbaycan edebiyatı tarihi. I-II, Ankara: –Akçağ Yayınları, –2013. –s. 186.

bəzi həyati faktları ortaya çıxararaq belə bir doğru qənaətə gəlir: *"Bu müxtəlif rəvayətləri bir nöqtəyə toplayacaq, tarixi qiyməti etibariylə hamısına üstün gələcək qüvvətli bir vəsiqə əldə edilib də Nəsiminin haralı olduğu haqqında və Nəsiminin həyatı tamamilə aydın oluncaya qədər qəti və elmi hökm vermək mümkün deyildir"*[12]. Nəsiminin şeirlərini "Azəri ləhcəsi" ilə yazması fikri də şairin milli kimliyini bir daha təsdiqləmiş olur.

İ.Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi" kitabında hər biri haqqında oçerk verdiyi Həbibi, Kişvəri, Xətai, Hamidi, Xəlili, Haşimi, Süruri, Bəsiri, Matəmi, Yusif bəy, Pirqulu bəy, Şəmsi, Şahqulu bəy, Süsəni bəy, Saleh, Girani, Piri, Figari, Bidari, Sehabi, Penahi, Şahi, Hafiz, Niyazi və b. onlarla şairin həyat və yaradıcılığı haqqında ilk dəfə məlumat vermişdir.

Belə nəticəyə gəlmək olar ki, İ.Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi" əsəri özündən əvvəl yazılan F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" ikicildliyindən bir addım irəli getmişdir. Bu əsər bütünlüklə Avropa üsullu ədəbiyyat tarixləri parametrlərinə tam cavab verməsə də, qismən cavab verirdi. Hər şeydən əvvəl, İ.Hikmətin əsərində müəyyən bir sistem görünür. Hər dövrün icmalı verilir və bu icmaldan sonra ədəbi şəxsiyyətlərin həyatı və yaradıcılığına nəzər salınır. Bu ədəbiyyat tarixinin 30-cu illərdə yazılan orta məktəb ədəbiyyat tarixlərinə təsiri də olmuşdur.

**"Ə.Abid və onun "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" əsəri"** adlı II paraqrafda 20-ci illərdə ədəbiyyat tarixçiliyi istiqamətində ən çox araşdırmalar aparmış Ə.Abidin yaradıcılığı araşdırılır. Göstərilir ki, Ə.Abidin öz əsərini "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" adlandırması yeni mövqe idi. Yəni Azərbaycanda yaşayan türklərin ədəbiyyatı. Görünür, bununla tədqiqatçı ədəbiyyatın hər hansı bir cografiyaya deyil, xalqa mənsubluğunu göstərmək istəmişdir: *"Bu gün Azəri türkcəsi dediyimiz ləhcə ilə danışan Qafqaz, İran, Xorasan və İraq türklərinin ədəbi və fikri həyatları haqqında təhlillər"*[13].

---

[12] İsmail, H. Azerbaycan edebiyatı tarihi. I-II, Ankara: –Akçağ Yayınları, –2013. –s. 201.

[13] Abid, Ə. Azərbaycan türklərinin ədəbiyyatı tarixi (Tərtibçi, çapa hazırlayan və ön söz müəllifləri B.Əhmədov və Ə.Şamil). Bakı: –Elm və təhsil, –2016. –s. 22.

Ə.Abidin “Azərbaycan türklərinin ədəbiyyatı tarixi”nin strukturu belədir: 1. Fehrist (Birinci söz, 2.Başlanğıc: Azərbaycan-azəri-oğuz təbirləri haqqında ümumi bir tədqiq. 3.Rusiya, Avropa, Türkiyə və Azərbaycan mətbuatında ədəbiyyatımıza aid yapılan tədqiqatlar haqqında təhlili biblioqrafiya). 2. Mədxəl (1. Azərbaycan və Qafqaz türklərinin mənşələrinə qısa bir baxış: a) Əski oğuz türklərinin yaşadığı yerlər, b) iqtisadi həyat, c) Totemçilik, d) Hakim olan dinlər), 2. Əski oğuzlarda ədəbi həyat, e) Ağız ədəbiyyatı, ə) Yazılı ədəbiyyat, f) Vəznli nəsr və heca vəzni, g) İlk heca vəznləri, ğ) Xalq şairləri və s. Əsərin sonrakı hissələrinin böyük bir qismi "Oğuznamə"lərə, "Kitabi Dədə Qorqud" dastanının təhlilinə və bəzi boylarının yeni əlifba ilə uyğunlaşdırılmasına həsr edilmişdir. Bu cilddə "Nəticə" və "Əlavə mətnlər" də yer almışdır.

Ə.Abidin "Ədəbiyyat tarixi" İ.Hikmətdən əvvəl yazılsa da, İ.Hikmətin "Ədəbiyyat tarixi" ondan tez çap olunmuşdur. Ancaq nəzərə alsaq ki, İ.Hikmət əsərdən yalnızca bir boyu dərc etmiş və onun təhlilinə cəmi bir neçə cümlə ayırmışdır, o zaman bu qədim abidənin fundamental araşdırmasının Ə.Abidin üzərinə düşməsini söyləmək olar. Ə.Abid dastanla bağlı yalnız özünün "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" əsərində yazmamış, həm də Bakıya gəldikdən sonra müxtəlif yerlərdə məruzələr etmiş, məqalələr dərc etdirmişdir. Özü də bu araşdırma sistemli şəkildə getmişdir. Ə.Abid ilk araşdırma kimi Kilisli Müəllim Rifətin nəşrinə istinad edir. Müəllif kitabın dilinin Şərqi Oğuz ləhcəsi olduğunu bildirir və bu üzdən də Türkiyə nəşrində Rifətin bir çox sözləri düzgün oxumadığına diqqət çəkir. Tədqiqatçının üstünlüyü orasındadır ki. Türkiyə nəşri ilə V.V.Bartold nəşrini müqayisə etmək imkanına malik olur. Müəllifə görə, V.V.Bartold Drezden nəşrini öz gözləri ilə gördüyündən və onu tədqiq etmiş olduğundan onun nəşrindəki "Kirabi Dədəm Qorqud əla-lisan taifeyi oğuzan" adı daha məqbul hesab olunmalıdır. Kilisli Rifət isə "Dədəm" sözündəki "m" zəmir ədatını atmış, "taifə" kəlməsini isə Osmanlı ağzına görə "taefe" kimi vermişdir.

Ə.Abidin bu əsərində yeni ədəbiyyat tarixçiliyi fikrinin formalaşdığını və bu əsərin yeni ədəbiyyat tarixçiliyinə tamamilə uyğun gəldiyi qənaətinə gəlmək olar. Belə ki, tədqiqatçı özü əsərin

bir neçə yerində indiyədək milli ədəbiyyat tariximizin təkamül xətləri nəzərə alınaraq metodik bir təhlilə məruz qalmadığı fikrinə diqqət çəkir. Onun fikrincə, türk ədəbiyyatı bir silsilə halında tədqiq edilməli, müxtəlif dövrlərə bölünməlidir. Ə.Abidin milli ədəbiyyat tarixinin dövrləşdirilməsinə aid ayrıca bir tədqiqatı olmasa da, bəzi fikirlərindən onun dövrləşdirmənin tərəfdarı olduğu görünür: *"Bununla bərabər, türk ədəbiyyatını müxtəlif dövrlərə, müxtəlif ləhcələrə ayırıb da-ümumi təkamül xəttini buraxmadan tədqiq etmənin daha qolay bir yol olduğu qənaətindəyiz"*[14].

Əmin Abidin "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" əsərinin sonunda lüğət də verilmişdir. Tədqiqatçının İstanbul Universitetinin arxivində qalan sonuncu cildi isə bu cildə nisbətən daha çox ədəbiyyat tarixçiliyi üslubunda yazılmışdır. Lakin hər iki əsər vaxtında elmi dövriyyəyə daxil olmadığından ədəbiyyat tarixçiliyi prosesinə o qədər də təsir göstərə bilməmişdir. Doğrudur, ədəbiyyat tarixi olaraq bu mətnlər elmi dövriyyəyə daxil olmasa da, ayrı-ayrı məqalələri, tədqiqatları dövrün mətbuatında çap olunduğundan ədəbiyyat tarixçiliyi prosesinə bu və ya digər şəkildə təsir göstərmişdir. Bu səbəbdən də "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" kitabında tədqiqatçının ədəbiyyat tarixçiliyi haqqında konsepsiyasını tam olaraq görmürük. Onun bu konsepsiyası ədəbiyyat tarixçiliyi ilə bağlı yazdığı məqalələrdə daha konseptual xarakter daşıyır.

Ədəbiyyat tarixçiliyi ilə bağlı Azərbaycanda gedən araşdırmalar 20-30-cu illərdə bir mərhələ təşkil edir. Bu mərhələdə həm ədəbiyyatın tarixi problemləri, həm də metodoloji yanaşmalar mövqeyindən yeni tədqiqat əsərləri yazılır. B.Əhmədov bu dövrü xarakterizə edərkən XX əsrin 20-30-cu illərini Azərbaycan ədəbiyyatşünaslığının təşəkkül dövrü adlandıraraq *"Ədəbiyyat tarixçiliyinin fundamental şəkildə araşdırılması, ədəbi-elmi fikrimizin Avropa üslulu ilə yeni nəzəriyyə və konsepsiya ilə işlənməsi, tədqiqatların sistemli və davamlı aparılması məhz bu dövrün payına düşür"*[15],-qənaətinə gəlir. Lakin onu da demək lazımdır ki, əgər 20-ci illərdə ədəbiyyat tarixçiliyi problemlər nəzəri

---

[14] Abid Ə. Azərbaycan türklərinin ədəbiyyatı tarixi (Tərtibçi, çapa hazırlayan və ön söz müəllifləri B.Əhmədov və Ə.Şamil). –Bakı: Elm və təhsil, –2016. –s. 25.

[15] Əhmədov, B. Bir istiqlal yolçusu (Əmin Abid: həyatı, mühiti, yaradıcılığı). – Bakı: Elm, –2003. –s. 118.

istiqamətdə gedirdisə, 30-cu illərin ortalarına doğru proses səngiyir. Yəni artıq ədəbiyyat tarixçiliyi söhbətlərindən praktik işə keçilir, ədəbiyyatdan bir neçə iş kitabı yazılır. 20-ci illərdə haqqında söhbət gedən Azərbaycan ədəbiyyatı praktik şəkildə müxtəlif formalarda həyata keçirilirdi. Belə bir vaxtda M.K.Ələkbərlinin "Azərbaycan ədəbiyyatı" kitabı nəşr olunur. Bu 30-cu illərdə Azərbaycan ədəbiyyat tarixçiliyi istiqamətində atılan ilk addımlardan biridir. Doğrudur, bu əsəri F.Köçərli, Ə.Abid, İ.Hikmətin ədəbiyyat tarixləri ilə müqayisə etmək düzgün olmazdı. Hər şeydən əvvəl, M.K.Ələkbərlinin "Azərbaycan ədəbiyyatı" əsəri nəzərdə tutulmuş ədəbiyyat tarixləri istiqamətində yazılmamışdır. Yəni burada Azərbaycan ədəbiyyat tarixi sistemli şəkildə araşdırılmamış, tipik ədəbiyyat tarixçiliyi funksiyası həyata keçirilməmişdir. M.K.Ələkbərlinin "Azərbaycan ədəbiyyatı" adlanan bu əsərini 20-ci illərdə ədəbiyyat tarixçiliyi istiqamətində gedən mübahisələrin gecikmiş davamı kimi səciyyələndirmək olar. Buna baxmayaraq bu əsərdə M.K.Ələkbərlinin Azərbaycan ədəbiyyatı və onun tarixi, bugünü ilə bağlı bir çox məsələlərə özünəməxsus yanaşması var.

Bu fəsildə əldə edilən müddəalar müəllifin elmi jurnallarda dərc edilmiş məqalələrində öz əksini tapmışdır.[16]

**“30-cu illərdə ədəbiyyat tarixinə yanaşmada yeni metodoloji və ideoloji meyillər”** adlı III fəsil **“Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi məsələləri”** və **“Ədəbiyyat tarixinə yanaşmada metodoloji problemlər”** adlı iki paraqrafa bölünür. **“Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi məsələləri”** paraqrafında ədəbiyyat tarixinin yazılmasında ən mühüm məsələlərdən biri və bu gün də aktual olan dövrləşdirmə problemi araşdırılır. Demək lazımdır ki, dünya ədəbiyyatşünaslığında da

[16] Muşkiyeva, A. Əmin Abid və onun "Azərbaycan türklərinin ədəbiyyati tarixi" əsəri//-Bakı: -Filologiya məsələləri, -2021. No 4, -s.212-220; Muşkiyeva, A. Amın Abid as the first researcher of "Kitabı-Dada Korkud". II- Дрогобиць: Актуальні питання гуманітарних наук: міжвузівський збірник наукових праць молодих вчених Дрогобицького державного педагогічного університету іменіІвана Франка, - 2022. Вип 50, - с.І96-200 Index Copernicus International; Muşkiyeva, A. İsmail Hikmet'in Edebiyat Hakkındakı Görüşleri /l Uluslararası Bilim ve Yazı Dili Olarak Türkçe Sempozyumu, – İstanbul: –18-20 Mayis, –2022,-S. 131-136.

ədəbiyyat tarixinin bir elm kimi formalaşması müəyyən bir tarixi proses olmuşdur. Həm də bu proses millətin özünü dərketmə məqamında daha çox aktuallaşmış və formalaşmağa doğru getmişdir. Fransız, alman, ingilis ədəbiyyat tarixçiliyinin formalaşması prosesində ədəbiyyatın dövrləşdirilməsinə böyük önəm verilmiş, hər bir dövrün ədəbiyyatının xarakterinin yaradılmasında, yaxud başa düşülməsində bu metodologiyadan istifadə edilmişdir. Lakin Azərbaycan ədəbiyyatında hələ ədəbiyyat tarixləri yazılmadığından bu dövrləşdirməyə necə əməl edilməsini də söyləmək çətindir. Azərbaycan ədəbiyyatı ilə bağlı yazılan bəzi məqalələrdə bu dövrləşdirmənin konturlarını sezmək mümkündür. Akademik İsa Həbibbəyli özünün "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkiaşf mərhələləri" adlı monoqrafiyasında ədəbiyyatşünaslığımızda bunun ilk işartılarını M.F.Axundzadə yaradıcılığında axtarır: *"Ədəbiyyat tarixinin dövrləşdirilməsi baxımından Mirzə Fətəli Axundzadənin nəzəri irsində müşahidə olunur ki, böyük mütəfəkkir klassik Şərq və Azərbaycan şairlərinə istinad edərkən onların adlarını xronoloji ardıcıllıqla çəkmiş, tarixilik prinsipinə əməl etmişdir"*[17].

20-ci illərdə isə ədəbiyyat tarixinin dövrlərə ayrılmasına ciddi elmi əhəmiyyət verilirdi. Bunun da müəyyən səbəbləri var idi, ədəbiyyat tarixinin yazılması ətrafında gedən söhbətlər bu məsələnin gündəmə gəlməsini zəruri edirdi. Əslində bu problem F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərinin çapından sonra daha da aktuallıq qazandı. Çünki rus və digər xalqların ədəbiyyatının yazılmasında müəyyən bir prinsip gözlənilirdisə, F.Köçərlinin ikicildliyində bu prinsipə əməl edilməmişdi. Onun mövcud ədəbiyyat tarixi materialları coğrafi prinsip üzərində qurulmuşdu ki, bu da çağdaş elmi nəzəri təfəkkürlə ayaqlaşmırdı. B.Çobanzadə bu məsələnin ümumiyyətlə dünya ədəbiyyatşünaslığında mühüm yer tutduğunu nəzərdə tutaraq yazırdı: *"Son elmi əsərlərdə (tədqiqatçı Alman və rus ədəbiyyatşünaslarının əsərlərini nəzərdə tuturdu-A.M.) ədəbiyyat tarixinin dövrlərə təqsimi işinə çox ciddi bir məsələ kimi*

[17] Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. –Bakı: -Elm, -2019. -s. 22.

*baxırlar. Çünki dövrlərə ayırma işi yalnız xronolojik, təqvimi bir məsələ olmayıb, bəlkə, bir çox nöqtələrdən də prinsip məsələsidir"*[18]. Tənqidçi Əli Nazim də bu vacib problemə toxunaraq yazırdı: "*...bu gün bilxassə Avropada ədəbiyyat tarixi bir elm dərəcəsinə gəlmişdir. Hər millət öz ədəbiyyat tarixini müəyyən bir mənşədən (origine) başlayaraq çox mühüm və elmi nəzərlərlə tədqiq edir, halbuki bizdə bu belə deyildir"*[19].

Ə.Nazim ədəbiyyat tarixçiliyi və onun dövrləşdirilməsi məsələsinə "Azerbaydjanskaya literatura" araşdırmasında toxunur. O, Azərbaycan ədəbiyyatını XV əsrdən başlayır və onu "qızıl əsr" adlandırır və Füzulinin du dövrün dahi nümayəndəsi hesab edir (Nazim, 1929; 101). Birinci dövr hesab etdiyi bu dövrün əsas xüsusiyyəti kimi müsəlman dünyaduyumunda panteist görüşləri əsas götürür. Tənqidçinin dövrləşdirməsində ən mühüm cəhət ondan ibarətdir ki, onun dövrləşdirməsi özünün də içində olduğu dövrə qədər gəlib çıxır. Bu dövrləşdirmə aşağıdakı şəkildə təsnif olunur:

I. XIV əsrin sonu XVI əsrin əvvəlləri. Bu dövrü klassik Azərbaycan ədəbiyyatının "çiçəklənmə dövrü" adlandırır və əsas nümayəndələri İ.Nəsimi, Həbibi, M.Füzuli və Ş.İ.Xətainin adını çəkir.

II.XVIII əsr. Bu dövr feodal ədəbiyyatı dövrü adlandırılır və əsas nümayəndəli M.V.Vidadi və M.P.Vaqif göstərilir.

III. XIX əsr. Bu dövr rus istilası və burjua ziyalılığı dövrü adlandırılır. A.Bakıxanov, Q.Zakir, M.F.Axundov, H.Zərdabi, N.Vəzirov, S.Ə.Şirvani və N.Nərimanov əsas nümayəndələri hesab edilir.

IV. XX əsr ədəbiyyatı. Bu dövrün özü də üç yerə ayrılır:

a) Demokratik xalqçı-maarifçi qrup. "Molla Nəsrəddin" ədəbi məktəbi: C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Qəmküsar.

b) "Füyuzat" ədəbi məktəbi: Ə.Hüseynzadə, M.Hadi, Ə.Ağayev, H.Cavid və b.

c) Aralıq qrupu: Müznib, A.Səhhət, A.Şaiq.

---

[18] Çobanzadə, B. Seçilmiş əsərləri. 5 cilddə, III c., -Bakı: -Şərq-Qərb, –2007. –s. 251.
[19] Nazim, Ə. Ədəbiyyatımız və ədəbiyyat tariximiz. Yeni yol, –1925, 4 yanvar.

V. Sovet (proletar) ədəbiyyatı.

Göründüyü kimi, Ə.Nazim ədəbiyyatı XIV əsrdən başlayır və bugünümüzə qədər gəlib çıxır. Onun bu dövrləşdirməsi yaşadığı dövrün elmi mənzərəsini də içinə alan ilk dövrləşdirmədir.

M.F.Köprülünün "Azəri ədəbiyyatının təkamülü" əsərində ədəbiyyat tariximizin dövrləşdirilməsi məsələsinə də yer verilib. Tədqiqatçı ayrıca dövrləşdirmə məsələsinə nəzəri mülahizələrini bildirməsə də, təklif etdiyi dövrləşdirmənin özündən çıxış edərək ona qiymət vermək olar. Tədqiqatçı bu əsərində Azərbaycan ədəbiyyatını aşağıdakı kimi dövrləşdirir:

1. İlhanlılar və Cəlairlər dövrü (XII ilə XVI əsrlər);
2. Qaraqoyunlular və Ağqoyunlular dövrü (XV əsr);
3. Səfəvilər dövrü (XVI ilə XVII əsrlər);
4. Avşarlar, zendlər və Qacarlar dövrü (XVII və XIX əsrlər);
5. Azəri ədəbiyyatında təcəddüd dövrü (XIX-XX əsrlər):

-Birinci dövr (1905-ci ilə qədər);

-İkinci dövr (1905-1920);

-Üçüncü dövr (son dövr).

M.F.Köprülünün dövrləşdirilməsində anadilli ədəbiyyat əsas götürülmüş və ən çox tarixilik prinsipinə üstünlük vermişdir. Belə ki, M.F.Köprülü Azərbaycan ədəbiyyatının daha çox hökmdarların dövrləri ilə adlandırmağa üstünlük vermişdir.

Azərbaycan ədəbiyyatını dövrləşdirmə İ.Hikmətin "Azərbaycan ədəbiyyatı" ikicildliyində də yer almışdır. Bu da təbiidir. İ.Hikmətin əsəri çap olunarkən artıq dövrləşdirə ədəbiyyat tarixçiliyinin əsas prisiplərindən biri hesab olunurdu. İ.Hikmətin ədəbiyyat tarixi üç hissədə toplanmışdır:

1. İslamiyyətin başlanğıcından miladi XIII əsrə qədər;
2. Miladi XIII əsrdən XV əsrə qədər;
3. Miladi XV əsrdən XVII əsrə qədər.

Ə.Abidin dövrləşdirməsi ilə bağlı tam olaraq fikir formalaşdırmaq bir qədər çətindir. "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" əsərinin birinci cildində tədqiqatçı Azərbaycan və Qafqaz türklərinin məişətlərinə qısa icmaldan sonra əski oğuz türklərinin yaşadığı yerlər, iqtisadi həyat, totemçilik, hakim olan dinlər, ağız və yazılı ədəbiyyat, vəznli nəsr və heca vəzni, ilk heca

vəznləri və s. barədə məlumat verdikdən sonra ən qədim ədəbiyyatımızı aşağıdakı dövrlərə bölür:

I. Əşirət dövrü

1. Qafqaz və zərbaycanda ədəbi həyatın başlanğıcı

2. Yabançı ədəbiyyatların təsiri

3. Xalq ədəbiyyatının əski dövrləri

4. Çadır ədəbiyyatı: əşirət aristokrasisinin vücuda gətirdiyi ədəbiyyat:

a) "Oğuznamə; mövzusu və mahiyyəti

b) "Oğuz xan" mənqəbəsi

c) "Həzrət əl-risalət min kəlamət Oğuznamə əl-məşhur atalar sözü"

d) Miladi XII əsrdə "Koroğlu" mənqəbəsi.

II. Əşirət dövrü ilə dərəbəylik dövrü arasındakı keçid zamanı

A.Musaxanlının dövrləşdirmə sistemində isə bir qədər fərqlilik var. Belə ki, onun dövrləşdirilməsində tarixi amil əsas götürülmüşdür. Lakin təsnifatların izahında ictimai quruluşlarla yanaşı ədəbi janrlar və üslublar da başlıca yer tutduğunu görmək mümkündür.

Ədəbiyyat tarixi məsələsində B.Çobanzadə özündən əvvəlki tədqiqatçılardan bir qədər də irəli gedərək yeni ədəbiyyat tarixinin yaradılmasını qarşıya qoyurdu. Onun fikrincə, "Azəri ədəbiyyatının tarixi müxtəlif məsələlərə dair ayrı-ayrı tədqiqlər, monoqrafiyalar meydana gətirilmədikcə yaradıla bilməz. B.Çobanzadənin ədəbiyyat tarixini dəyərləndirən ədəbiyyatşünas N.Şəmsizadənin *"...öz dövrünün ona məlum olan ədəbiyyat tarixləri professor Bəkir Çobanzadəni təmin etmirdi. Belə ədəbiyyat tarixləri həqiqətən o zaman mövcud idi"*[20],-qənaəti ilə razılaşmaq lazım gəlir.

Sonuncu fəslin **"Ədəbiyyat tarixinə yanaşmada metodoloji problemlər"** adlı sonuncu paraqrafında 20-30-cu illərdə ədəbiyyatşünaslığımızda buraxılan ideoloji və metodoloji meyillər tədqiq olunur. Göstərilir ki, 20-30-cu illər ədəbi tənqid və ədəbiyyatşünaslığının əsas xüsusiyyətlərindən biri marksizm

[20] Şəmsizadə, N. Ədəbi mübahisələr. –Bakı: Yazıçı, –1986. – s.15.

metodolojisinin həyata keçirilməsindən ibarət idi. Lakin bu metodoloji hər kəs tərəfindən bir cür qavranıldığından hər hansı bir məsələyə münasibətlərin müxtəlifliyi ortaya çıxırdı. İkinci bir tərəfdən, ədəbiyyatşünaslar metodoloji və ideoloji təmayüllər məsələsində ən çox bir-birini ittiham etməkdə istifadə edirdilər.

Ədəbiyyata, ədəbiyyat tarixçiliyinə çağdaş metodoloji baxımdan yanaşan tənqidçilərdən biri kimi H.Zeynallı müxtəlif məqalələrində çağdaş ədəbiyyatşünaslığın metodolojisini müəyyənləşdirməyə çalışmışdır. Bu cəhətdən onun A.Baqrinin "Ədəbiyyatşünaslıq üçün vəsait" kitabına yazdığı "Metodoloji müqəddimə" araşdırması təqdirəlayiqdir. Dövrün ideologiyasından irəli gələn bəzi məsələləri nəzərə almasaq, H.Zeynallının bu araşdırması çağdaş ədəbiyyatşünaslığa nəzəri giriş verən bir əsər kimi yadda qalır. H.Zeynallı nəzəri məsələlərdə metodolojini düzgün anlayır və şərh edir, lakin onu Azərbaycan ədəbiyyatına şamil etdikdə müəyyən səhvlərə yol verirdi. Bu səhvlərin əksəriyyəti dövrün hakim ideologiyasından irəli gəlirdi. Onun fikrincə, hər bir yazıçı, hər bir şair "müəyyən sinfi funksiyanı" həyata keçirdiyi üçün "o sinfə sıxıdan-sıxıya bağlı olmalıdır" qənaətinə gəlirdi. Bu nədənlə də ədəbiyyatşünasın, tənqidçinin hər bir yazıçıya aşağıdakı kimi yanaşmalıdır: 1. Yazıçının psixo-ideolojisi; 2. Onun mövzuları; 3. Onun dili və ifadə vasitələri; 4. Onun hansı sinfi qəbul etdiyini qeyd etməsi; 5. Yazıçının ictimai vəziyyəti və istehsalda tutduğu mövqeyi, və ya harada çalışdığı, hansı mühitdə yaşaması.

H.Zeynallı hər hansı bir yazıçının əsərini qiymətləndirərkən bu beş amilə diqqət yetirir. Bu amillərin əksəriyyəti yazıçının ictimai vəziyyəti və sinfi dünyagörüşünü üzə çıxarmağa xidmət edirdi. H.Zeynallının Azərbaycan ədəbiyyatı və onun ayrı-ayrı şəxsiyyət və hadisələri ilə bağlı yazdığı məqalə və araşdırmaları nəzəri strukturu və məzmunu ilə nə qədər maraqlı olurdusa, metodoloji yanaşmasında qüsurlar da özünü göstərirdi. Əslində H.Cavidin yaradıcılığı haqqında ilk fundamental məqalələr də ona məxsusdur. Tənqidçinin "Şeyx Sənan", "Maral", "Şeyda" əsərləri ilə bağlı mülahizələri nəzəri xarakter daşıyırdı. Şeyda "Şeyda") kimi romantik qəhrəmanlarının xarakterini açmaqda onun məqalələrinin əhəmiyyətli rolu vardı.

Ə.Nazim müəllimlər üçün yazdığı oçerkin və müntəxabatın bir hissəsini proletar diktaturası dövrünə həsr etmişdir. Müntəxabatın əsas materiallarını iki hissəyə bölür: 1. Hərbi kommunizm və bərpa dövrünün ədəbiyyatı 2. Rekonstruksiya dövrünün ədəbiyyatı. Məsələ heç də Ə.Nazimin həmin dövrü necə adlandırmasında deyildi, həm də yazıçıların bölünməsini sinfi münasibətə görə müəyyənləşdirməsində idi. Ədəbiyyatı günün səviyyəsinə endirməkdən başqa, həm də onu bütünlüklə siyasi proseslərlə əlaqələndirmək ona heç nə vermirdi. Hərbi kommunizm və bərpa dövrləri ədəbiyyatını üç qrupa ayırması da bunu açıq göstərir:

1. Burjua qolçomaq ədəbiyyatı;
2. Cığırdaş ədəbiyyatı;
3. Proletar ədəbiyyatı.

Ə.Nazimin bu bölgüsü bütünlüklə dövrün ədəbiyyat siyasəti ilə bağlı qərarlarından irəli gəlirdi. Dövrün siyasətini öz əsərlərində göstərməyən şair və yazıçıların hər hansı birini bu üçbucağa salaraq onların əsərlərindən çox ideoloji mövqelərini önə çəkirdi: *"İnqilabi və bərpa dövrünün ilk illərində burjua-qolçomaq və mülkədar qalıqlarının ziyalıları bu surətlə bir sıra metodlar və üsullarla yeni inqilabi quruluş əleyhinə mübarizə edir, bu sinfin ideoloji silahını yaradırdılar. Bu ziyalıların başlıca ədəbi-məfkurəvi ifadələrini Hüseyn Cavid, Cavad və Sanılı yaratmışdılar"* [21] . Tənqidçi bu şairlərin yaradıcılığını da məhz ideoloji aspektdən təhlil edirdi. Ə.Cavadın Cümhuriyyət dövründə şeirlərini nəzərdə tutaraq onu "müsavatın rəsmi saray şairi" olmaqda suçlayırdı.

Metodoloji yanaşma Ə.Nazimin ədəbiyyatşünaslığa, ədəbiyyat tarixçiliyinə münasibətində də özünü qabarıq şəkildə göstərirdi. "Türk ədəbiyyatşünaslığında pantürkizm və kamalizm əleyhinə (Musaxanlı, Əmin Abid, Köprülüzadə, və İsmayıl Hikmətin görüşləri haqqında)" adlı böyük araşdırmasında ədəbiyyat tarixçiliyi üzərinə təhlillər aparır. Bu təhlillərdə tənqidçi ədəbiyyatşünaslığımızda ədəbiyyat tarixçiliyi yolunda çalışan alimlərimizi tənqid edir. Lakin onun tənqidi metodoloji cəhətdən düzgün qurulmamışdı. Ədəbiyyatşünaslıqdakı bu "pərdələnmənin"

---

[21] Nazim, Ə. Seçilmiş əsərləri. –Bakı: Yazıçı, –1979. -s. 308..

iç üzünü açmağa çalışan tənqidçi onların metodolojik möhkəmliyinə (ortodoksluğuna) inanmalarını heç də təəccüblü hesab etmir və İ.Hikməti “burjua tarixçisi”, Musaxanlı, Çobanzadə və Ə.Abidi “pərdələnmiş” ədəbi görüşlərini sinfi nöqteyi-nəzərdən dəyərləndirirdi.

Çağdaş metodolojinin tənqidi təkcə Ə.Nazim yaradıcılığında deyil, eləcə də M.Rəfili, M.Hüseyn məqalələrində də özünü göstərirdi. Özü də metodoloji sözü altında ədəbiyyatşünasların siyasi mövqeyi qabardılır, onların metodolojisinin "burjua" metodolojisinə uyğun gəldiyi qabardılırdı. M.Rəfili "Professor Çobanzadənin burjua metodolojisi əleyhinə" məqaləsi də məhz bu məqsədi daşıyırdı. Cəmi iki şeir kitabı çıxan, ədəbiyyatşünaslıq yollarında ilk addımlarını atan M.Rəfilinin professoru tənqid etməsi üçün böyük cəsarətdən başqa, elmi-nəzəri səviyyə də lazım idi. Lakin proletar tənqidçilərinin bu səviyyə olmadan da professora "dərs vermək" səlahiyyəti var idi. Çünki onlar bu səlahiyyəti söykəndikləri "marksizm-leninizm nəzəriyyəsi"ndən alırdı.

İdeoloji yanaşmay tənqidçi, ədəbiyyatşünas M.K.Ələkbərlinin çıxış və məqalələrində də yer verilmişdir. Bu cür səhvlər "Azərbaycan ədəbiyyatı" kitabında özünü daha qabarıq göstərir. Ədəbiyyatşünas kitabın qədim dövrə aid olan hissəsində yanaşmalarında doğru mövqedən çıxış etdiyi halda, müasir bədii nümunələrin təhlilində bu obyektivliyi qoruyub saxlaya bilmir. M.K.Ələkbərlinin "Azərbaycan ədəbiyyatı" kitabının öz dövrünə aid olan böyük bir hissəsi ideoloji mahiyyət daşıyır. Müasir dövrün ədəbi bədii düşüncəsinə ədəbiyyat tarixçiliyi nöqteyi-nəzərdən yanaşa bilmir və dövrün ədəbiyyatını birtərəfli qiymətləndirir.

*XII əsrdən başlayaraq onlar əsas etibarilə öz ana dillərində yazırlar. Onlardan birincisi Həsənoğlu, Qazi Bürhanəddindir"*[22]. Ədəbiyyatşünas milli ədəbiyyat tarixinin anadilli mərhələsinə böyük önəm verir, Nəsimi, Qazi Bürhanəddin, Həbibi, Xətai, Füzuli yaradıcılığını yüksək qiymətləndirirdi.

Bu fəsildə əldə edilən müddəalar müəllifin elmi jurnallarda

---

[22] Ələkbərli, M.K. Azərbaycan ədəbiyyatı. –Bakı: -Azərnşr, –1935. - s.7.

dərc edilmiş məqalələrində öz əksini tapmışdır.[23]

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqat zamanı əldə edilmiş qənaətlər ümumiləşdirilmişdir.

-Ədəbiyyat tarixçiliyinin qaynaqları qədim dövrə getsə də, yeni Avropa tipli ədəbiyyat tarixçiliyi XX əsrin əvvəllərindən formalaşmağa başlamışdır.

-Ədəbiyyat tarixçiliyinin ilkin mərhələsində onun necə adlanması əsas prioritetlərdən biri olmuşdur.

-Azərbaycan ədəbiyyat tarixçiliyinin formalaşmasında F.Köçərlinin əvəzsiz rolu olmuşdur.

-20-ci illərdə ədəbiyyat tarixinin yazılması üçün yeni meyarlar müəyyənləşmişdi. Yeni ədəbiyyat tarixçiliyi yolunda 20-ci illər ən zəngin və məhsuldar bir dövr kimi yadda qalır.

-Yeni ədəbiyyat tarixçiliyinin formalaşmasında İ.Hikmətin, Ə.Abidin, B.Çobanzadənin əsərlərinin mühüm rolu olur.

---

[23] Muşkiyeva, A. Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi məsələləri // –Bakı: Filologiya məsələləri, – 2019. № 7, – s. 192-196; Muşkiyeva, A. Bekir Chobanzade's researches of the history of literature/!-Częstochowa: Scientific journal of Polonia University, Periodyk Naukowy Akademii Polonijnej,-2022. 51nr 2.-c. 284-289.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıda qeyd olunan məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**


1. Muşkiyeva, A. XX əsrdə ədəbi proses // – Bakı: Filologiya məsələləri, – 2018.№ 1, – s. 299-303.
2. Muşkiyeva, A. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixinin araşdırılması problemləri // Azərbaycanşünaslığın aktual problemləri.Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci il dönümünə həsr olunmuş IX Beynəlxalq Elmi konfransın materialları,– Bakı: – 3-4 may, – 2018, – s. 379-381.
3. Muşkiyeva, A. Cavid yaradıcılığının insanın şəxsiyyət kimi formalaşmasında əhəmiyyəti// Hüseyn Cavid əbədiyyəti. Respublika elmi konfransının materialları, – Bakı: – 24 oktyabr, – 2018, – s. 28-30.
4. Muşkiyeva, A. Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi məsələləri // –Bakı: Filologiya məsələləri, – 2019. № 7, – s. 192-196.
5. Muşkiyeva, A. Əmin Abid və onun “Azərbaycan türklərinin ədəbiyyatı tarixi” əsəri // – Bakı: Filologiya məsələləri, – 2021. № 4, – s.212-220.
6. Muşkiyeva, A. Amın Abıd as the fırst researcher of “Kıtabı-Dada Korgud”//– Дрогобиць: Актуальнi питання гуманiтарних наук: мiжвузiвський збiрник наукових праць молодих вчених Дрогобицького державного педагогiчного унiверситету iменi Iвана Франка, – 2022. Вип 50, – с.196-200 Index Copernicus International.
7. Muşkiyeva, A. Bekir Chobanzade; s researches of the history of literature// –Częstochowa: Scientific journal of Polonia University, Periodyk Naukowy Akademii Polonijnej, – 2022. 51nr 2, – с. 284-289 Index Copernicus.
8. Muşkiyeva, A. Firidin bəy Köçərlinin ədəbiyyat tarixi sahəsindəkixidmətləri// “Azərbaycan ədəbiyyatşünaslığının aktual problemləri”.Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Təhsin

Dissertasiya işinin müdafiəsi 19 mart 2025-ci il tarixində saat 15^00 Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən filologiya elmləri doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcələrini alamq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən ED – 1.05 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1073, Bakı ş., H.Cavid prospekti 117. Akademiya şəhərciyi, Əsas bina, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avroreferat 3 fevral 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.12.2024

Kağızın formatı: A5

Həcm:47955

Tiraj: 100